# Bir illik zəhmətiniz üçün “sağ ol, teatr” deyirik

## Sentyabrda da ”salam, teatr” deyəcəyik



**Yay insanların ən çox istirahət etdiyi bir fəsildir, kimimiz sanatoriya və istirahət evlərinə üstünlük veririk, kimimiz doğulub boya-başa çatdığımız yerlərdə dincəlməyə can atırıq, kimimiz də dünyanı fəth etmək iddiası ilə macəra axtarmaq həvəsinə düşürük. Bir də ki, yayda təkcə məzuniyyətə çıxanlar, ali və orta məktəblərdə oxuyanlar, işləyənlər deyil, həm də il boyu bizim mənəvi dünyamızı zənginləşdirən, zövqümüzü oxşayan, ruhumuzu qidalandırmaq üçün gecə-gündüz çalışan teatr-konsert müəssisələrinin əməkdaşları da tətilə çıxır, yeni mövsüm üçün yeni ilham, yeni ruh yüksəkliyi ilə geri dönməyə gedirlər.**

2019-cu ilin yaşam panoramasını göz önündə canlandırarkən əmin olursan ki, cəmiyyətin mənəvi həyatında, ən başlıcası isə böyüməkdə olan nəslin mənəvi tərbiyəsində önəmli yer tutan, onların hərtərəfli inkişafında, getdikcə qloballaşan və daha çox nanotexnologiyalara güvənib yetkin və hərtərəfli insan, vətəndaş kimi formalaşmağa can atan gəncliyin milli və bəşəri dəyərlərə münasibətini təmin edəcək və yönəldəcək əsərlərin, bədii yaradıcılıq nümunələrinin, milli-mənəvi dəyərlərin qorunması, klassik ənənələrə söykənməklə yaradılan musiqi mədəniyyətimizin yeni çalarlarla zənginləşdirilməsi, bir sözlə, mədəniyyət tariximizin 21-ci əsrin başgicəlləndirən inkişaf tempi ilə ayaqlaşmasını təmin etmək üçün görülləsi işlər həddindən artıq çoxdur. Təbii ki, çox çeşidli və keşməkeşli tarixi ilə bu gün də xarici dövlətlərin maraq dairəsində olan Azərbaycan, təkcə maddi sərvəti ilə deyil, həm də mənəvi zənginliyi ilə diqqət çəkməkdədir. 2019-cu ildə də respublika rəhbərinin əvəzsiz qayğısını hiss edən teatrlarımız repertuarını bir sıra maraqlı tamaşalarla zənginləşdirdi, xarici ölkələrdə qastrol səfərlərində oldu, yeni dramaturqlar, ifaçılar, bəstəkar və rejissorlarla yaradıcılıq əməkdaşlığına başladı. 109 yaşlı Azərbaycan Dövlət Musiqili Teatrının da adına Akademik titulu əlavə olundu və bu yüksək addan sonra ömrünü səhnəyə bağlayan insanların maddi-rifahı xeyli yaxşılaşdı ki, bu da hər kəsin taleyində ciddi dönüşə səbəb oldu.

Zəngin ənənələri ilə seçilən bu teatr son illərdə öz repertuarını bayağı, süni gülüş doğuran bir sıra tamaşalardan xilas etmək, daha sağlam, daha işgüzar, sözün əsl mənasında, yaradıcılıq ab-havası aşılayan əsərlər yaratmaq üçün imkanlarını səfərbər edib, indi onun öz tamaşaçı auditoriyası var.



Şübhəsiz ki, teatrda hökm sürən işgüzar ab-hava, yeni tamaşaların hazırlanması və yaradıcı heyət üçün yaradılan şərait kollektivin daha böyük şövqlə işləməsinə səbəb olub. 109-cu mövsümə 2018-ci il sentyabr ayının 22-də Milli Musiqi günü və Ü.Hacıbəyli X Beynəlxalq Musiqi Festivalı çərçivəsində dahi bəstəkarın ”Arşın mal alan” tamaşası ilə start verən teatr, az sonra tamaşaçılarını görkəmli bəstəkarımız Emin Sabitoğlunun şən və oynaq musiqisi ilə zəngin olan ”Bir dəfə Bağdadda” müzikli ilə sevindirib.

Az sonra isə gənc rejissor Ayla Osmanovanın quruluşunda balaca sənətsevərlər ”Cırtdanın Yeni İl sərgüzəştləri” adlı tamaşanın premyerasına baxıblar.

2019-cu il yanvar ayının 12-də isə xalq artisti Cənnət Səlimova, musiqisini okeanın o tayında yaşayan Ruslan Ağababayevin yazdığı, səhnə eskizlərini Məryəm Ələkbərlinin çəkdiyi, rəqslərinin quruluşunu leninqradlı xoreoqraf Sergey Qritsayın verdiyi beynəlxalq bir heyətlə A.Sent-Ekzüperinin dünyaca məşhur ”Balaca şahzadə” əsərini tamaşaçıların mühakiməsinə təqdim etdi. Bu əsərin araya-ərsəyə gəlməsinin birbaşa himayədarı olan H.Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın daimi qayğısını hiss edən kollektiv, son məşqlərdə onun iştirakını və yaradıcı heyətə uğurlar arzulamasını bu gün də minnətdarlıq hissi ilə xatırlayır.

109-cu mövsümdə uşaqlar üçün oynanılan digər bir tamaşa isə rejissor Elməddin Dadaşovun quruluş verdiyi ”Buratino” olub. Bu əsər də ilin uğurlu tamaşalarından sayılır.

Mövsüm başa çatsa da yaradıcılıq axtarışları davam edir. 110-cu mövsümdə tamaşaçılar rejissor Mehriban Ələkbərzadənin S.Stratiyevin ”Avtobus” pyesi əsasında hazırladığı ”Çarəsiz sərnişinlər”, rejissor Əsgər Əsgərovun yenidən quruluş verdiyi ”Beş manatlıq gəlin” ( Səid Rüstəmov M. S. Ordubadi), gənc rejissor Samir Qulamovun təqdimatında V. Hüqonun ”Paris Notrdam kilsəsi” əsərlərinə baxa biləcəklər. Məşhur gürcü dramaturqu Nodar Dumbadzenin hər kəs tərəfindən sevilən əsərlərindən birinə -”Mən, nənəm, İliko və İllarion” pyesinə isə rejissor Əhəd Hacıyev quruluş verəcək.

Yola saldığımız mövsümdə 225 dəfə səhnəyə çıxan yaradıcı heyətin üzvlərindən bir çoxu xarici ölkələrdə keçirilən beynəlxalq əhəmiyyətli müsabiqə



və festivallarda iştirak edib, vətənə fəxri mükafatlarla qayıdıblar.

İllər boyu çəkilən zəhmət də qiymətsiz qalmayıb. Teatrın aktyorlarından 9 nəfəri Prezident mükafatına, aktyor Nadir Xasıyev həm də ”Əməkdar artist” fəxri adına layiq görülüb.

Artıq 5-ci dəfədir ki, mövsümün bağlanmasına bir həftə qalmış teatr rəhbərliyi ilin ən yaxşı aktyorunu, aktrisasını, perspektivli sənətçisini, texniki işçisini seçir, ən yaxşı uşaq roluna görə, ən yaxşı musiqiçi, xor və balet artisti, ən yaxşı rejissor assistenti nominasiyasında fərqlənənlərin böyük bir qrupunu mükafatlandırır. Bu il teatrın təşəbbüsünü dəstəkləyən Azərbaycan Teatr Xadimləri İttifaqı da kollektivin 4 üzvünü xüsusi diplomla mükafatlandırdı. İttifaqın sədri, Xalq artisti Azər Paşa Nemətov mükafat alanları təltif edərək onların hamısına və bütövlükdə, teatra uğurlar arzulayıb. Həmin gün həm də doğum gününün sevincini kollektivlə bölüşən teatrın direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayev də səmərəli fəaliyyətinə görə TXİ-nın ”Sənətkar” ordeni ilə təltif olunub.

Hər il olduğu kim bu il də xalq artisti Hüseynağa Sadıqovun ailəsi tərəfindən məhz Azərbaycan Dövlət Akademik Musiqili Teatrın kollektivi üçün təsis edilmiş ”Büllur alma” mükafatı ”Mövsümün ən yaxşı tamaşasına görə” rejissor, Xalq artisti, Şöhrət ordenli Cənnət Səlimovaya və rəssam Məryəm Ələkbərliyə (”Balaca şahzadə”) təqdim olunub, ”Mövsümün sevilən tamaşası” nominasiyasında isə rejissor Əsgər Əsgərov (”Toya bir gün qalmış”) bu ödüllə mükafatlandırılıb.

Mövsümün bağlanmasına sayılı günlər qalmış teatr 4 ildən bəri keçirdiyi ənənəvi bir tədbiri də reallaşdırıb. Görkəmli teatr və kino xadimi, Xalq artisti, Dövlət Mükafatı laureatı Şəfiqə Məmmədovanın sədrlik etdiyi münsiflər heyəti 2 gün ərzində yeni səsləri, yeni ifaçıları seçmək üçün çox ciddi-cəhdlə işlədi. Səsinə, istedadına güvənən 21 gənc, aktyor kimi bacarığını nümayiş etdirdi, müxtəlif çalğı alətlərində daha yetənəkli olduğunu sərgiləməyə çalışan 10 gənc də diqqətlə dinlənildi, 11 gənc teatrın xor truppasında işləmək ümidi ilə müsabiqəyə qatıldı. Bu gərgin və məsuliyyətli yarışmada fərqlənənlər isə cəmi 8 nəfər oldu. Bu gənclər müsabiqədən sonra onlara tapşırılan yay tapşırıqlarından imtahan vermək üçün təkrar, münsiflər heyətinin qarşısına çıxacaq və qaliblər, artıq teatrın səlahiyyətli işçisi kimi, 110-cu mövsümdə geniş tamaşaçı auditoriyası qarşısında da öz istedadlarını nümayiş etdirmək imkanı qazanacaqlar.

Həftə sonu, iyulun 14-də, Azərbaycan Dövlət Akademik Musiqili Teatr öz sehrli pərdələrini bir də sentyabrda açmaq üçün sənətsevərlərlə xudahafizləşir. Onlar bizə, biz də onlara deyirik: xoş istirahətlər, yeni mövsümdə görüşənədək! Bu gün sizə bir illik zəhmətiniz üçün ”Sağ ol, teatr!” deyirik, ümidvarıq ki, sentyabrda da yeni tamaşaların sevincini sizinlə bölüşmək üçün ”Salam, teatr!” kəlməsini bərabər söyləyəcəyik!

**Telli PƏNAHQIZI**